Food and Agriculture Organization of the United Nations

FAO 75 Grow, Nourish, Sustain. Together.

16 oktyabr 2020-ci il

**Ümumdünya Qida Günü**



# Birlikdə Böyütmək, Bəsləmək, Qorumaq.

*Əməllərimiz bizim gələcəyimizdir.*

#ÜmumdünyaQidaGün

fao.org/world-food-day



© FAO

# Yeni çağırışlar

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) yaranmasından etibarən dünya 75 il ərzində yoxsulluq, aclıq və ərzaq çatışmazlığı ilə mübarizədə böyük irəliləyiş əldə etmişdir. Kənd təsərrüfatı sahələrinin məhsuldarlığı və ərzaq sistemlərində böyük yol qət edilmişdir. Lakin, hələ də çox sayda insanın köməyə ehtiyacı var. 2 milyarddan çox insanın kifayət qədər təhlükəsiz və sağlam qidaya çıxışı yoxdur. COVID-19 pandemiyası bu çətinliyə əlavə olaraq, qida təhlükəsizliyi və qidalanma sahəsində əldə edilən gəlirin qarşısını alır. İndi qida sistemini, iqtisadiyyatı və sosial yardım strukturlarını təhlükə qarşısında qoyan davam edən qeyri-bərabərlik və səmərəsizliyin qarşısını almaq zamanıdır. İndi daha yaxşısını inşa etməyin zamanıdır.

### FAO-NUN 75 İLLİK FƏALİYYƏTİ

- FAO 1945-ci ildə həyatları yaxşılaşdırmaq öhdəliyi ilə təsis edilmişdir.194-dən çox ölkənin üzv oldu BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı 130-dan çox ölkədə fəaliyyət göstərir.
- Biz inanırıq ki, hər kəs aclığın aradan qaldırılması və ərzaq sistemlərimizin təkmilləşməsində rol oynaya bilər.

## Onillik Fəaliyyət

Hal-hazırda biz beynəlxalq səviyyədə 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olmaq üçün dönüş nöqtəsindəyik. 2020-ci ildə əsası qoyulan Onillik Fəaliyyət Qlobal Məqsədlərə nail olmaq, yoxsulluğa və aclığa son qoymaq, planeti qorumaq və sosial rifahı təmin etməyi hədəfləyir. DİM2 (aclığa son qoymaq, qida təhlükəsizliyinə və qidalanma səviyyəsinin artmasına nail olmaq  və dayanıqlı kənd təsərrüfatını təşviq etmək ) insanların dayanıqlı ərzaq sistemlərinə çıxışı əldə etməkyolu ilə qida təhlükəsizliyinə nail olmağı hədəfləyir. Hələ görüləsi çox işimiz var. İndi innovativ həllərə və güclü tərəfdaşlığa həmişə olduğundan daha çox ehtiyacımız var.

## Davamlılıq və Dayanıqlılıq

Dünyanın son dərəcə kasıb əhalisinin 80 faizi kənd yerlərində yaşayır və əksəriyyəti dolanışıqlarını təmin etmək üçün kənd təsərrüfatı ilə məşğul olur. İnsanların həyat şəraitini dayanıqlı olaraq inkişaf etdirmək üçün, biz ənənəvi ərzaq istehsalı, emalı, satışı və istehlakı üsullarını dəyişdirməli, eləcə də israf edilərək atılmasına son qoymalıyıq. Bununla da, əmin ola bilərik ki, biomüxtəlifliyi və digər təbii ehtiyatları korlamadan və tükətmədən gələcək ehtiyaclarımızı ödəyə bilərik.

## Uzunmüddətli, qısamüddətli

FAO uzunmüddətli davamlılıq və dayanıqlılıq üzərində işləyir, eyni zamanda kəskin aclıq, münaqişə və xəstəliklə mübarizə aparan köməyə möhtac cəmiyyətlər üçün qısamüddətli həll yollarını da dəstəkləyir. Ərzağı kənardan idxal edən İnkişaf Etməkdə Olan Kiçik Ada Dövlətləri (İEOKAD) və sadəcə neft ixracından asılı olan ölkələrin xüsusi diqqətə ehtiyacı var.

## COVID-19 böhranı

İnsanların təhlükəsiz və sağlam ərzaq ehtiyacının qarşılanması COVID-19-a qarşı cavab tədbirlərindən ən vacibidir. COVID-19- un yoluxma sürətini azaltmaq üçün görülən tədbirlər insanların həyatını xilas etməyə kömək etdi. Buna baxmayaraq hələ də pandemiya ilə bağlı qoyulan bəzi məhdudiyyətlər əvvəldən də ərzaq problemi yaşayan bir çox ölkədə ərzaq qiymətlərinin artması gəlirlərin azalmasına gətirib çıxardı və nəticədə bu ölkələrdə yaşayan aztəminatlı ailələr üçün ərzaq və gəlir əldə etmək daha da çətinləşdi. FAO sosial müdafiə sxemlərindən tutmuş aqrar dəstəyə qədər müxtəlif müdaxilələr yolu ilə problemin qarşısını almaq üçün fərdi torpaq sahibləri ilə danışıqlar apardı, dövlət və özəl sektor arasında koordinasiya qurdu.

## Həyata keçirilən tədbirlər

- **Peruda** FAO tərəfindən təlim keçmiş təbii banan yetişdirilməsi ilə məşğul olan qurum, uşaqlara evində yemək vəməktəbdə qidalanma proqramının bananla təminatını öz üzərilərinə götürdü.
- **Haitidə**, FAO təxminən 50 min insanın ağır vəziyyətdə yaşadığı şimal-şərq bölgələrinə bitki toxumları və şitillər paylamaqla Kənd Təsərrüfatı Nazirliyinin ərzaq qıtlığı çəkən bölgələrdə aqrar istehsalını canlandırmaq səylərinə kömək etdi. FAO həmçinin bu ərazilərdə yaşayan insanları COVID-19 riskinə qarşı ehtiyalı olmağa və rəsmi profilaktik tədbirlərə əməl etməyə çağırdı.
- **İspaniyada**, FAO tərəfindən tanınan Qlobal Əhəmiyyətli Kənd Təsərrüfatı İrsi Sistemi (QƏKTİS), tarixi L’Horta suvarma bölgəsində yaşayan balıqçı xalq “onlayn” qaydada balıq sifarişi qəbul etdi və COVİD-19 pandemiyası ilə əlaqədar tətbiq edilən karantin zamanı evlərini tərk edə bilməyən yaşlı insanlara və digərlərinə velosipedlə təzə balıq çatdırdı.
- **Gürcüstanda**, 22 bələdiyyənin tabeliyində olan fermerlərə təklif edildi ki, tərəvəz və giləmeyvə yetişdirmə xərclərinin 75%-ni qarşılamaq məqsədilə fövqəladə vəziyyətlə bağlı qranta müraciətetsinlər və onlara damcı suvarma sistemlərinin quraşdırılması və istifadəsi üçün texniki yardım göstərildi.
- **Pakistanda**, FAO çətin vəziyyətdə mübarizə aparan heyvandarlıq fermalarına heyvan yemi payladı, fermer sahəsi üzrə məktəb quraraq onların biznes bacarıqlarını və dayanıqlılığını daha da artırdı. Damcı suvarma sistemlərinin və tərəvəz əkini ləvazimatlarının paylanılmasını təşkil etdi.
- **Omanda**, balıq tacirləri rəqəmsal texnologiya sayəsində COVID-19 pandemiyası ilə əlaqədar tətbiq edilən fiziki məsafə qaydalarını pozmadan onlayn qaydada topdansatış auksiyonları keçirdi, müştərilərə lazım olan məlumatları verdi, hətta balıqların şəklini də göndərdilər. FAO-nun texniki dəstəyi ilə Omanın kənd təsərrüfatı rəsmiləri və Oman Texnologiya Fondu rəqəmsal satış platformasını genişləndirməyi planlaşdıraraq sınaqdan keçirdi.
- **Cənubi Sudanda**, FAO, zərərçəkmiş fermerlərə toxum tədarükünü COVID-19 məhdudiyyətlərinə uyğun qaydada yenidən təşkil etdi, ölkə daxilində toxum yarmarkaları kimi kütləvi toplanış yerlərini azaltdı və toxumları birbaşa yerli satıcılardan satın almaq üçün fermerləri pulla təmin etdi.


© FAO/Luis Tato


© FAO/Max Valencia

# “ƏRZAQ QƏHRƏMANLARI”

Sayı 800 milyona yaxın olan fərdi təsərrüfat sahibləri uzunmüddətdir ki, aqrar sahədə yeniliklərə imza atırlar. Yer üzərində mövcud olan əkinə yararlı torpaqların 75%-i fərdi təsərrüfat sahiblərinə məxsusdur və bu torpaqlardan əldə edilən məhsul dünya üzrə qida ehtiyatının 80%-ni qarşılayır . Fərdi təsərrüfat sahibləri durmadan çalışırlar ki, öz əkin üsullarını zərərvericilərdən tutmuş hava şəraitinə qədər bütün problemlərə uyğunlaşdırsınlar. Bu kimi “ərzaq qəhrəmanları”, xüsusən də qida istehsalı, emalı, daşınması və marketinqində əməyi keçən hər bir işçi COVID-19 pandemiyası boyunca çətin şərtlər altında işləməyə davam etdilər. Çoxumuz onlardan asılıyıq, lakin pandemiyanın ən çox zərbə vurduğu da elə kiçik təsərrüfat sahibləri oldu.



© FAO/Eduardo Soteras

## Biomüxtəliflik və ekoloji tarazlıq

COVID-19 pandemiyası, çəyirtkə və digər zərərverici həşəratların çoxalması insanlar, heyvanlar və ətraf mühitin qarşılıqlı olaraq bir-birindən asılı olmasının bariz nümunəsidir. FAO-nun qısamüddətli prioritetlərinə COVID-19-un ilkin təsirlərini aradan qaldırmaq daxildir, lakin uzunmüddətli planına əsasən biomüxtəlifliyin pozulması və yoxa çıxmasına gətirib çıxaran xəstəliklərin qarşısı alınacaq.

## Dayanıqlı ərzaq sistemlərinin gücləndirilməsi

Aqroekologiya aztəminatlı ailələrə dəstək olmaq və biomüxtəlifliyi qorumaq üçün məhsul, heyvandarlıq fermaları və landşaftların təşkilinə kömək edir. Məsələn Kamboca və Laos Xalq Demokratik Respublikasında FAO kiçik sahibkarların Birgə Zəmanət Sistemi (PGS) vasitəsilə yeni bazarlara çıxmalarına kömək edərək əkinçiliklə məşğul olan əhaliyə dəstək göstərdi. 2020-ci ildə Qlobal Ekologiya Fondu (QEF) və Zəif İnkişaf Etmiş Ölkələrin Fondu dayanıqlı qida sisteminin əhəmiyyətini bir daha təsdiq etdilər. Bu fondlar FAO-nun “iqlim-əsaslı ağıllı kənd təsərrüfatı” sistemini və təbii resurslardan davamlı istifadəni təşviq etmək üçün irəli sürdüyü layihələrin həyata keçirilməsi üçün 176 milyon ABŞ dolları dəyərində yardım ayırıb. Bu vəsait Braziliyadan tutmuş Yəmənə qədər müxtəlif ölkələrdə icra olunan 24 layihə üçün istifadə olunacaq.

## Çəyirtkəkimilər ilə mübarizədə elektron vasitələr

Dünyanın bir çox ölkəsində xüsusən də Afrika, Asiya və Yaxın Şərqdə, dünyanın ən dağıdıcı köçəri zərərvericisi olan çöl çəyirtkəsinə qarşı mübarizəyə başlanıldığı dövrdə işçilərin və avadanlıqların hərəkətinə pandemiya ilə əlaqədar məhdudiyyətlər qoyuldu. FAO çöl çəyirtkəsi ilə bağlı apardığı araşdırmaları intensivləşdirdi və bu problemdən əziyyət çəkən ölkələri eLocust3 adlı planşet və elektron tətbiqetmədən istifadəyə təşviq etdi. Proqram real vaxtda ucqar ərazilərdəki məlumatı toplayaraq milli çəyirtkə mərkəzlərinə və FAO-nun Romadakı baş qərargahında yerləşən Çöl Çəyirtkəsi Məlumat Mərkəzinə (DLİS) ötürür. 2015-ci ildən 2020-ci ilin ortalarına qədər bu cihazların 450-dən çoxu müxtəlif ölkələrdə çəyirtkələrə qarşı mübarizə qruplarına paylandı və FAO tətbiqetmənin mobil telefonlar və GPS cihazları üçün versiyalarını da hazırladı.


© Globe Guide Media Inc

### GÜNDƏM: BİTKİ YETİŞDİRƏN AEROPONİKA

Ruandada ən az 30 fermer, artan əhalinin ehtiyaclarını ödəmək üçün torpaq və təbii işıq olmadan qida istehsal edir. Onlar bitkiləri becərmək üçün aeroponikadan istifadə edirlər. Aeroponika mühitində bitkilərin kökü havada qalır və onlar rütubətli mühitdə yetişirlər. Ruandada aeroponika istifadəsinin təşəbbüskarı əvvəllər bitki bakteriyaları və virusları ilə əlaqədar bitkilərdən keyfiyyətli toxum almaqda çətinlik çəkən Apollinaire Karegeya idi. 2018-ci ildə FAO Afrikada kök və bitki köklərinin sektorunu inkişaf etdirmək üçün layihəyə başladı və bu layihə Kareqeyanı daha yaxşı ərzaq saxlama üsulları, aqrobiznes və maliyyə qurumları ilə işləmək sahələrində təlimləndirdi.



© FAO/Luis Tato

# İnnovasiya

> ***Qida məhsullarının dayanıqlı istehsalı üçün kənd təsərrüfatında innovasiyanın, rəqəmsallaşma və elektron ticarətin miqyasını genişləndirmək vacibdir.***
>
> *FAO-nun baş direktoru Qu Donqyunun Twitter hesabında bəyanatı*

FAO fəaliyyət göstərdiyi son 75 ildə bunu başa düşdü ki, sadəcə qida istehsalını artırmaq kifayət deyil. Biz əmin olmalıyıq ki, ərzaq sistemləri dayanıqlıdır və onlar hamımıza, əsasən də aramızda qidaya ən çox ehtiyacı olanlara uyğun qiymətə çatdırılır və sağlamlığımız üçün təhlükəsizdir. İnnovativ texnologiyalar, elm, tədqiqat və özəl sektora aid olan şirkətlərin hamısı qida istehsalı və istehlak yollarını – cəmiyyətimizin, iqtisadiyyatımızın və planetimizin rifahı üçün dəyişdirməyə kömək edə bilər.

## Birgə Təşəbbüs

FAO-nun Birgə Təşəbbüs planı, potensial tərəfdaşları dövlət, özəl, akademik və digər sektorlarda bir araya gətirmək üçün hazırlanmış innovativ biznes modelidir. Bu biznes modeli donorları köməyə ehtiyacı olanlarla əlaqələndirir və Zəif İnkişaf Etmiş Ölkələr(SİDS) və qida çatışmazlığı yaşayan digər ölkələrə uyğun hazırlanmış proqramlara dəstək üçün məlumat və modelləşdirmədən istifadə edir

Birgə Təşəbbüsə aid olan yeni Birgə Məkansal Platforma ölkələrə məlumat və elmə əsaslanan qərar qəbul etmədə kömək edir və heyvanların sağlamlığından tutmuş ticarət və bazarlara qədər bir çox sahələr üzrə FAO-nun 20-dən çox bölməsini bir araya gətirir. Platforma FAO-dan aldığı məlumatları torpaq, su, iqlim, balıqçılıq, heyvandarlıq, məhsul, ticarət, sosial və iqtisadi məlumatlar kimi kateqoriyalarda birləşdirir. O həmçinin FAO tərəfdaşları, QHT-lər, özəl sektor və kosmik agentliklərdən də məlumat toplayır.

## FAO işdə

Qlobal, regional və milli siyasət və strategiyaları, qida təhlükəsizliyi və bu kimi digər problemləri həll etməyə yönəlmiş proqramlara dəstək olmaq üçün FAO özünün ofislər şəbəkəsindən, tərəfdaşlarından və əldə etdiyi məlumatlardan istifadə edir. Gördüyümüz işlərin bəziləri:

- Elmi və ya texniki standartların, metodların və yanaşmaların işlənib hazırlanması və dəstəklənməsi. Bundan sonra onlar ölkə səviyyəsində tətbiq edilə bilər.
- Beynəlxalq müqavilə və konvensiyalar üçün siyasət yönümlü norma və standartların yazılması üçün tərəfdaşlarla işləmək.
- Qlobal səviyyədə verilənlər bazası və məlumat sistemlərini inkişaf etdirmək və dəstəkləmək.
- "Dünyada Qida Təhlükəsizliyi və Qidalanmanın vəziyyəti" adlı əsas nəşr kimi müxtəlif tədqiqatların aparılması, hesabat və məlumatların hazırlanması.
- Dayanıqlı kənd təsərrüfatında innovasiyaların yaranması və paylaşılmasına dəstək olmaq və müvafiq rəqəmsal vasitələrə əlçatanlığın artırılması.
- Maarifləndirmə və bacarıqların artırılması üzrə proqramların təmin edilməsi və onlara dəstək.

## Düzgün siyasət üçün informasiya və məlumatların rolu

FAO məlumat bazası və apardığı təhlillər vasitəsilə qərar qəbul edənlərə bir çox yolla dəstək olur:

- COVID-19 kimi fövqəladə vəziyyətlərin əhalinin rifahı, ərzaq və kənd təsərrüfatı, bazarlar, yoxsulluq və qidalanmaya təsiri ilə bağlı texniki və siyasi məlumatların hazırlanması.
- Data Lab vasitəsilə fövqəladə hallar, qidalanma, sosial müdafiə kimi geniş sahələrdə atılan siyasi addımları müəyyənləşdirən və izləyən qlobal qiymətləndirmənin aparılması.
- Qida və Kənd Təsərrüfatı Siyasəti Qərarlarının Təhlili (FAPDA) adlı məlumat bazamız vasitəsilə, COVID-19-un qida və kənd təsərrüfatına təsirini azaltmaq üçün ölkələr tərəfindən qəbul edilmiş qərarlar barədə ümumi məlumat vermək.
- Ərzaq məhsullarının qiymətləri ilə bağlı ən son məlumatların yerləşdirildiyi Ərzaq Qiymətlərinin Monitorinqi və Təhlili Vasitəsilə və əkin təqvimindən istifadə edərək COVID-19 ərzində əkin və məhsul yığımına dair tövsiyələri dəstəkləmək.



© FAO/Ernesto Benavides

### GÜNDƏM: **SUYUN İDARƏOLUNMASI ÜÇÜN RƏQƏMSAL TƏTBİQETMƏ**

FAO və İspaniyanın telekomunikasiya şirkəti Telefônica, Latın Amerikasının bir sıra ölkələrində kənd təsərrüfatı ilə məşğul olan əhalini su sensorları, avtomatik meteoroloji sistemlər və digər qabaqcıl texnoloji avadanlıqlarla təmin etdi. Tərəfdaşlıq fermerlərə su qaynaqlarını daha yaxşı idarə etməyə və iqlimlə əlaqəli təbii fəlakətlərin öhdəsindən gəlməyə kömək edir. Telefonicanın Smart Agro rəqəmsal tətbiqi fermerlərə havanın rütubətliliyini izləməyə və lazım olan su miqdarını əvvəlcədən proqnozlaşdırmağa kömək edir. Bu tətbiqetmə Kolumbiyada qəhvə və kartof, Peruda pambıq və  El Salvadorda müxtəlif məhsulların əkini ilə məşğul olan fermerlərə kömək etdi. Ekvadorda fermerlər Smart Agro tətbiqi vasitəsilə mal-qaranın vəziyyəti və istixana qazı tullantılarının həcmi kimi digər məlumatları da əldə edə bilirlər.



© FAO/Hoang Dinh Nam

# Əməllərimiz bizim gələcəyimizdir

## Dünya ölkələri nə edə bilər?

- Zəruri ərzaq yardımları və sosial təhlükəsizlik şəbəkələri vasitəsi ilə köməyə ehtiyacı olan əhalinin ehtiyaclarını qarşılamaq
- Məlumatların yayılması və istifadəsini dəstəkləmək
- Kiçik fermer təsərrüfatı sahiblərindən gələn ərzaq təminatını artırmaq üçün təxirəsalınmaz tədbirlərə dəstək vermək
- Dayanıqlı ərzaq sistemləri üçün dəlillərə əsaslanan siyasət və hüquqi dəstəyin verilməsi, məsələn qidalanma, məşğulluq və torpaq ehtiyatlarına dair qaydalar.
- Ərzaq sistemlərini iqlim dəyişikənliyinə və zərbələrinə daha davamlı etmək üçün birlikdə fəaliyyət göstərmək.
- Qida sistemi işçiləri və aşağı gəlirli əhali üçün sağlam qidanın münasib qiymətə və əlverişli şəkildə çatdırılmasını təmin etmək.
- Təbii ehtiyatları qorumaq, iqlim tənzimlənməsini dəstəkləmək və xəstəliklərin baş verməsinə səbəb ola biləcək biomüxtəlifliyin məhv edilməsini yavaşlatmaq üçün “iqlim əsaslı ağıllı kənd təsərrüfat”ı sistemi və ətraf mühitə uyğun digər təcrübələri təşviq etmək
- İnnovasiya və rəqəmsallaşmanın prioritetləşdirilməsi və “rəqəmsal uçurum”-un aradan qaldırılması
- Böhran dövründə, tez xarab olmayan məhsulların ehtiyatlarını yaratmaq və ya artırmaq üçün kiçik istehsalçılardan kənd təsərrüfatı mallarını alması şərtlərinin qeyd olunduğu dövlət satınalma sxemlərini nəzərdən keçirmək
- Külli miqdarda dövlət xərcləri ilə səhiyyədə və iqtisadiyyatda baş verən böhranlarla mübarizə apararkən, ərzaq məhsullarının qiymətindəki dəyişkənliyin qarşısını almaq üçün tədbirlər görmək
- Maliyyə imkanları məhdud olan ölkələrdə kiçik fermer təsərrüfatı sahiblərini müflisləşdirən təsirlərin qarşısını almaq üçün qlobal həmrəylik və ya beynəlxalq əməkdaşlığı təcrübədən keçirmək.

## Özəl sektor nə edə bilər?

- Özəl müəssisələr məşğulluq imkanlarını artıran dayanıqlı ərzaq sistemlərinə investisiya qoymalıdırlar.
- Şirkətlər ərzaq sistemlərini dəyişdirməyə kömək edən texnologiyalar yaratmalı, mövcud texnologiyaları vəziyyətə uyğunlaşdırmalı və onları paylaşmalıdırlar.

- Özəl sektora aid ərzaq satışı müəssisələri və pərakəndə satıcılar dayanıqlı qidaları müştərilərə münasib qiymətə təklif etməlidirlər.
- Şirkətlər istehsal və emal zamanı yaranan qida itkisi və tullantılarını minimuma endirmək üçün planlar hazırlamalı və artıq ərzaq ehtiyatlarını istifadə etməli və ya paylamalıdırlar.
- Xüsusən inkişaf etməkdə olan ölkələrdə şirkətlər qida təhlükəsizliyi, qidanın keyfiyyəti və qida zəncirinin bütün mərhələlərində işləyən işçilərin rifahını qorumaq üçün dövlət tərəfindən qoyulan qaydalara əməl etməlidirlər.
- Rəqəmsal sektora aid şirkətlər qida zəncirlərinin dayanıqlılığını inkişaf etdirməyə kömək edə bilər. Nəqliyyat, təchizat və tələbat problemlərini həll etmək üçün texnologiyalar yaratmalı, mövcud texnologiyaları vəziyyətə uyğunlaşdırmalı və onları paylaşmalıdırlar və müvəqqəti çatışmazlıqların və ya artıqlıqların aradan qaldırılmasına kömək edə bilər.
- Elektron ticarət firmaları da daxil olmaqla ərzaq şirkətləri xüsusən tez xarab olan malların tadarükünü idarə etmək üçün yeni texnologiyaları özününkiləşdirə bilər və ya özlərinə aid texnologiyaları başqalarının istifadəsi üçün paylaşa bilərlər.
- Böhran dövründə banklar və maliyyə qurumları ödənilməmiş kredit borcu olan fermerlərin borcunu ləğv etmək, ödəmə müddətini uzatmaq və ya alternativ ödəmə planları təklif etməklə onlara kömək edə bilərlər.
- Böyük  müəssisələr tədarük zəncirlərinin azaldılmasına kömək edə bilər və kiçik müəssisələrin ayaqda qalmasına kömək etmək üçün kredit vermək barədə fikirləşə bilər
- Şirkətlər dayanıqlı ərzaq istehsalı və əhalinin rifahını yaxşılaşdırmaq üçün öz təcrübələrini  və ya texnologiyaları dövlət və digər özəl qurumlarla paylaşa bilərlər. Mobil tətbiqetmələr və digər rəqəmsal vasitələr iqlim dəyişikliyi və məhsul zərərvericilərindən pandemiyaya qədər müxtəlif problemləri həll etməyə kömək edə bilər.
- Şirkətlər təbii ehtiyatlara vurduqları zərərin həcmini nəzərə almalı və dayanıqlı yanaşmaya keçid etməlidirlər

## GÜNDƏM: **SURİYA ƏHALİSİNƏ DƏSTƏK**

Suriyada fermerlər ölkənin vacib buğda istehsalını davam etdirmək üçün dəfələrlə mövcud şəraitə uyğunlaşmalı oldular. Onlar ölkədə baş verən münaqişələr, kəskin ərzaq çatışmazlılğı, insanların öz yerlərindən köçürülməsi şəraitində əzmkarlıq göstərdilər. Əkinçilər toxum çatışmazlığı və əkin avadanlıqlarının oğurlanması ilə mübarizə aparmalı oldular. Münaqişənin səngiməsi və havanın ümumən yağıntılı keçməsi nəticəsində 2019-cu il ərzində ölkə ərazisində buğda istehsalı artdı, ancaq 2020-ci ilin əvvəllərindən başlayaraq COVİD-19 pandemiyası ilə əlaqədar  tətbiq edilən məhdudiyyətlər  yeni problemlər yaratdı. Artıq fermerlər heyvanlarını otarmaq, yeni təchizat almaq və ya məhsullarını marketdə satmaq üçün uzaq məsafələrə gedə bilmirdilər. FAO yeni buğda əkini mövsümü ilə əlaqədar əkinçilərə toxum paylanması məqsədilə BMT tərəfdaşları və bir çox başqa ianəçi ilə birlikdə əməkdaşlıq etdi. Onlar həmçinin fermerlərə tərəvəz şitillərinin saxlanılması üçün tunellərin tikilməsində, suvarma sistemlərinin yenidən qurulması və təmirində kömək etdilər. Pandemiya ilə əlaqədar qurulan sosial məsafə planlarını müşahidə etmək üçün FAO kənd təsərrüfatı və sahibkarlıqda ənənəvi sinifdaxili təlimi daha kiçik, açıq havada keçirilən dərslərlə əvəz etdi. Dünya Qida Proqramı ilə birlikdə FAO icmalara toxum, pestisid və digər zəruri məhsulların qiymətini nəzarətdə saxlamağa imkan yaratdı.



© FAO/Jafar Almerei



© Sasiistock

# Biz nə edə bilərik?

Aclıq və ərzaq çatışmazlığının olmadığı bir dünya düşüncəsinin reallaşdırılmasında hər birimizin rolu var. Dayanıqlı məhsul tendensiyasının hazırkı böhran dövründə yarıda qalmasına imkan verməməliyik. Sağlam qidalara üstünlük verməliyik. Qida tullantılarının azalması üçün əlimizdən gələni edə bilərik. Hökumət orqanlarına, müəssisələrə və təşkilatlara informasiya mübadiləsində və davamlı, dayanıqlı ərzaq sistemləri və əhalinin rifah halının yaxşılaşdırılması işində dəstək ola bilərik. Birlikdə dünyamızı qoruya, böyüdə və qida ilə təmin edə bilərik.



© FAO/Lekha Edirisinghe



© FAO/Luis Tato

## GÜNDƏM: **ƏMƏKDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİ**

FAO ilə əlaqəli fəaliyyət göstərərək ona dəstək verənlər arasında donor ölkələr, inkişaf bankları, mülki müdafiə mütəxəssisləri, özəl sektor fondları və digər BMT agentlikləri var. COVİD-19 pandemiyasının başlamasından sonra özəl sektor da çəyirtkəkimilərlə mübarizə üçün dəstək göstərdi. Buna nümunə olaraq Mastercard Fondu yerlərin təyin olunması, çiləmə üsulu və təhlükəsizlik tədbirləri də daxil olmaqla bir sıra fəaliyyətlərə 10 milyon ABŞ dolları dəyərində investisiya qoydu.

# Qısa faktlar

**2 milyarddan** çox insan **təhlükəsiz və müntəzəm şəkildə** qidalana bilmir.

**55** ölkədə təxminən **135 milyon insan kəskin aclıq şəraitində** yaşayır və təcili ərzaq yardımına ehtiyacı var.

**2050-ci ilə qədər dünya əhalisinin** təxminən **10 milyarda** çatacağı gözlənilir ki, bu da ərzaq məhsul larına olan tələbatı xeyli artıracaq.

Hər il qlobal miqyasda **istehlak üçün istehsal olunan qidaların** təxminən **14 faizi** topdansatış bazarına çıxmadan **itkiyə məruz qalır**.

Qida sistemi dəyişdirilməsə, **2050-ci ilə qədər yetərsiz qidalanma və ərzaq çatışmazlığı** daha da artacaq. Vəziyyət gəlir bərabərsizliyi, işsizlik və ya xidmətlərə əlçatanlılığın olmaması səbəbindən daha da pisləşə bilər.

Dünyada əksəriyyəti kənd və Dünyada əksəriyyəti kənd və ucqar ərazilərdə yaşayan **3 milyarddan** çox insanın **internetə çıxışı yoxdur**. Kiçik fermer təsərrüfatı sahiblərinin dolanışıqlarını yaxşılaşdırmaq üçün innovasiyalara, texnologiyalara və təlimlərə daha çox ehtiyacı var.

İqlim dəyişikliyi ilə birlikdə intensivləşdirilmiş ərzaq istehsalı **bioloji müxtəlifliyin** sürətlə yoxa çıxmasına səbəb olur. Hal-hazırda, cəmi **doqquz bitki növü** ümumi qida məhsulu istehsalının **66 faizini** əşkil edir.

**Qeyri-düzgün qidalanma və oturaq həyat tərzi** yalnız inkişaf etmiş ölkələrdə deyil, eyni zamanda aclıqla yanaşı piylənmənin də mövcud olduğu aşağı gəlirli ölkələrdə **piylənmə nisbətinin artmasına** səbəb olmuşdur. **Heç bir bölgə istisna deyil.**

FAO75 Grow, Nourish, Sustain. Together.

**Ümumdünya Qida Günü**

Hər il Birləşmiş Millətlər Təşkilatının Ərzaq  və Kənd Təsərrüfatı Təşkilatı (FAO) 16 oktyabr- təşkilatın yaranma tarixində Ümumdünya Qida Gününü qeyd edir. Bu il 75 illik yubileyini qeyd edən FAO aclıqdan ən çox əziyyət çəkən əhaliyə kömək etmək və ərzaq sistemlərini daha dayanıqlı etmək üçün hər bir bölgədəki tərəfdaşı ilə əməkdaşlığa davam edir. COVID-19 pandemiyasının geniş yayılmış təsiri hamımızın qlobal həmrəylik nümayiş etdirməyimizin və birgə hərəkətə keçməyimizin vacibliyini vurğulayır.

**FOOD AND AGRICULTURE ORGANIZATION OF THE UNITED NATIONS**

Viale delle Terme di Caracalla
00153 Rome, Italy

www.fao.org/world-food-day
#ÜmumdünyaQidaGün

CC BY NC SA

© FAO, 2020
CA9893AZ/1/08.20